**"*Kommersiya və (və ya) vergi*sirri hesab olunan məlumatları əldə edə bilən vəzifəli şəxslərin siyahısı"nın təsdiq edilməsi haqqında**[1]

AZƏRBAYCAN RESPUBLİKASI PREZİDENTİNİN FƏRMANI

Azərbaycan Respublikası Konstitusiyasının 109-cu maddəsinin 32-ci bəndini rəhbər tutaraq, Azərbaycan Respublikası Vergi Məcəlləsinin 30.4-cü maddəsinə əsasən **qərara alıram:**

~~1. "*Kommersiya və (və ya) vergi* sirri hesab olunan məlumatları əldə edə bilən vəzifəli şəxslərin siyahısı" təsdiq edilsin (əlavə olunur).~~[2]

2. "Kommersiya (vergi) sirri hesab olunan məlumatları əldə edə bilən vəzifəli şəxslərin siyahısının təsdiq edilməsi barədə" Azərbaycan Respublikası Prezidentinin 2003-cü il 23 oktyabr tarixli 954 nömrəli Fərmanı (Azərbaycan Respublikasının Qanunvericilik Toplusu, 2003, 10, maddə 559; 2010, 11, maddə 973; 2016, 4, maddə 668), "Kommersiya (vergi) sirri hesab olunan məlumatları əldə edə bilən vəzifəli şəxslərin siyahısının təsdiq edilməsi barədə" Azərbaycan Respublikası Prezidentinin 2003-cü il 23 oktyabr tarixli 954 nömrəli Fərmanında dəyişiklik edilməsi haqqında" Azərbaycan Respublikası Prezidentinin 2010-cu il 24 noyabr tarixli 357 nömrəli Fərmanı (Azərbaycan Respublikasının Qanunvericilik Toplusu, 2010, 11, maddə 973) və "Azərbaycan Respublikası Prezidentinin 2003-cü il 23 oktyabr tarixli 954 nömrəli Fərmanı ilə təsdiq edilmiş "Kommersiya (vergi) sirri hesab olunan məlumatları əldə edə bilən vəzifəli şəxslərin siyahısı"nda dəyişikliklər edilməsi haqqında" Azərbaycan Respublikası Prezidentinin 2016-cı il 18 aprel tarixli 863 nömrəli (Azərbaycan Respublikasının Qanunvericilik Toplusu, 2016, 4, maddə 668) Fərmanı ləğv edilsin.

**İlham ƏLİYEV,**
**Azərbaycan Respublikasının Prezidenti**

Bakı şəhəri, 4 oktyabr 2016-cı il
1052

~~*Azərbaycan Respublikası Prezidentinin 2017-ci il 1 fevral tarixli Fərmanı ilə təsdiq edilmişdir*~~[3]

~~***Kommersiya və (və ya) vergi sirri hesab olunan məlumatları əldə edə bilən vəzifəli şəxslərin siyahısı***~~

~~*1. Azərbaycan Respublikasının vergilər naziri*~~

~~*2. Azərbaycan Respublikası vergilər nazirinin birinci müavini*~~

~~*3. Azərbaycan Respublikası vergilər nazirinin müavinləri*~~

~~*4. Azərbaycan Respublikası Vergilər Nazirliyinin Vergi siyasəti və strateji araşdırmalar departamentinin baş direktoru*~~

~~*5. Azərbaycan Respublikası Vergilər Nazirliyinin Daxili təhlükəsizlik departamentinin baş direktoru*~~

~~*6. Azərbaycan Respublikası Vergilər Nazirliyinin Hüquq departamentinin baş direktoru*~~

~~*7. Azərbaycan Respublikası Vergilər Nazirliyinin Vergi risklərinin təhlili və nəzarəti departamentinin baş direktoru*~~

~~*8. Azərbaycan Respublikası Vergilər Nazirliyinin Ərazi vergi orqanları ilə iş üzrə departamentinin baş direktoru*~~

~~*9. Azərbaycan Respublikası Vergilər Nazirliyinin Vergi ödəyicilərinə xidmət və şəffaf vergi partnyorluğu departamentinin baş direktoru*~~

~~*10. Azərbaycan Respublikası Vergilər Nazirliyinin Beynəlxalq əməkdaşlıq və maliyyə institutlarında vergi monitorinqi departamentinin baş direktoru*~~

~~*11. Azərbaycan Respublikası Vergilər Nazirliyinin Vergi öhdəliklərinin icrasına nəzarət departamentinin baş direktoru*~~

~~*12. Azərbaycan Respublikası Vergilər Nazirliyinin Vergi qanunvericiliyinin icrasına nəzarət departamentinin baş direktoru*~~

~~*13. Azərbaycan Respublikasının Vergilər Nazirliyi yanında departamentlərin və ərazi vergilər departamentlərinin baş direktorları*~~

~~*14. Azərbaycan Respublikası Vergilər Nazirliyinin ərazi vergilər idarələrinin və rayon vergilər şöbələrinin baş direktorları*~~

~~*15. Azərbaycan Respublikasının Vergilər Nazirliyi yanında Vergi cinayətlərinin ibtidai araşdırılması departamentinin İqtisadi sahədə mütəşəkkil cinayətkarlığa qarşı mübarizə idarəsinin rəisi.*~~

**İSTİFADƏ OLUNMUŞ MƏNBƏ SƏNƏDLƏRİNİN SİYAHISI**

1. 1 fevral 2017-ci il tarixli **1222** nömrəli Azərbaycan Respublikası Prezidentinin Fərmanı (**"Azərbaycan" qəzeti, 3 fevral 2017-ci il, 24; "Xalq" qəzeti, 4 fevral 2017-ci il, 25, Azərbaycan Respublikasının Qanunvericilik Toplusu, 2017-ci il, 2, maddə 166** )
2. 12 sentyabr 2018-ci il tarixli **267** nömrəli Azərbaycan Respublikası Prezidentinin Fərmanı (**"Xalq" qəzeti, 13 sentyabr 2018-ci il, 204, Azərbaycan Respublikasının Qanunvericilik Toplusu, 2018-ci il, 9, maddə 1830)**

**FƏRMANA EDİLMİŞ DƏYİŞİKLİK VƏ ƏLAVƏLƏRİN SİYAHISI**

[1] 1 fevral 2017-ci il tarixli **1222** nömrəli Azərbaycan Respublikası Prezidentinin Fərmanı (**"Azərbaycan" qəzeti, 3 fevral 2017-ci il, 24; "Xalq"**

**qəzeti, 4 fevral 2017-ci il, 25, Azərbaycan Respublikasının Qanunvericilik Toplusu, 2017-ci il, 2, maddə 166** ) ilə adında və 1-ci hissədə "**Kommersiya (vergi)**" sözləri "**Kommersiya və (və ya) vergi** " sözləri ilə əvəz edilmişdir.

[2] 12 sentyabr 2018-ci il tarixli **267** nömrəli Azərbaycan Respublikası Prezidentinin Fərmanı (**"Xalq" qəzeti, 13 sentyabr 2018-ci il, 204, Azərbaycan Respublikasının Qanunvericilik Toplusu, 2018-ci il, 9, maddə 1830**) ilə 1-ci hissə ləğv edilmişdir.

[3] 1 fevral 2017-ci il tarixli **1222** nömrəli Azərbaycan Respublikası Prezidentinin Fərmanı (**"Azərbaycan" qəzeti, 3 fevral 2017-ci il, 24; "Xalq" qəzeti, 4 fevral 2017-ci il, 25, Azərbaycan Respublikasının Qanunvericilik Toplusu, 2017-ci il, 2, maddə 166** ) ilə "Kommersiya və (və ya) vergi sirri hesab olunan məlumatları əldə edə bilən vəzifəli şəxslərin siyahısı" yeni redaksiyada təsdiq edilmişdir.

əvvəlki redaksiyada deyilirdi:

~~Azərbaycan Respublikası Prezidentinin~~
~~2016-cı il 4 oktyabr tarixli 1052 nömrəli Fərmanı ilə~~
~~təsdiq edilmişdir~~

**~~Kommersiya (vergi) sirri hesab olunan məlumatları əldə edə bilən vəzifəli şəxslərin~~**

**~~siyahısı~~**

~~1. Azərbaycan Respublikasının vergilər naziri~~
~~2. Azərbaycan Respublikası vergilər nazirinin birinci müavini~~
~~3. Azərbaycan Respublikası vergilər nazirinin müavinləri~~
~~4. Azərbaycan Respublikası Vergilər Nazirliyinin Vergi siyasəti və strateji araşdırmalar baş idarəsinin rəisi~~
~~5. Azərbaycan Respublikası Vergilər Nazirliyinin Daxili təhlükəsizlik baş idarəsinin rəisi~~
~~6. Azərbaycan Respublikası Vergilər Nazirliyinin Hüquq baş idarəsinin rəisi~~
~~7. Azərbaycan Respublikası Vergilər Nazirliyinin Vergi risklərinin təhlili və nəzarəti baş idarəsinin rəisi~~
~~8. Azərbaycan Respublikası Vergilər Nazirliyinin Vergi auditi və operativ nəzarət idarəsinin rəisi~~
~~9. Azərbaycan Respublikasının Vergilər Nazirliyi yanında departamentlərin rəisləri~~
~~10. Azərbaycan Respublikası Vergilər Nazirliyinin ərazi vergilər departamentlərinin, ərazi vergilər idarələrinin və rayon vergilər şöbələrinin rəisləri~~
~~11. Azərbaycan Respublikasının Vergilər Nazirliyi yanında Vergi Cinayətlərinin İbtidai Araşdırılması Departamentinin İqtisadi sahədə mütəşəkkil cinayətkarlığa qarşı mübarizə idarəsinin rəisi.~~